**DOI: https://doi.org/10.59849/2957-3882.2024.1.74**
**UOT: 39**

# ŞİRVAN BÖLGƏSİNİN MƏSCİDLƏRİ AZƏRBAYCAN XALQININ MƏNƏVİ DƏYƏRLƏRİ SFERASINDA

**Könül ƏSƏDLİ***

***Açar sözlər:*** *Şirvan, mənəvi mədəniyyət, İslam, məscid, meyarlar*

## XÜLASƏ

Şirvan bölgəsi milli-mənəvi dəyərlərimizin lokal cəhətlərini və əsas meyarlarını özündə cəmləşdirmişdir. Mənəvi mədəniyyətimizin dövrümüzə qədər gəlib çıxan mühüm komponentləri, etno-mədəni cəhətlərinin vəhdəti məhz Şirvan bölgəsində əhəmiyyətli dərəcədə özünə yer etmişdir. Bütün Yaxın və Orta Şərqdə olduğu kimi, Azərbaycanda, o cümlədən Şirvan bölgəsində də İslam dini ictimai-siyasi həyatda mühüm rol oynayırdı. Şirvanda mövcud olan qədim, tarixi məscidlər İslam mədəni irsini zənginləşdirən tarixi abidələrimizdən hesab olunur. Şirvan memarlığında VII əsrin ortalarından yeni məscid obrazı formalaşmağa başlamışdır. İslam dininin gəlişi ilə Azərbaycan ərazisində ilk məscidlər inşa edilmişdir. Onlardan Şamaxı Cümə məscidini nümunə kimi göstərmək olar. Cümə məscidi iri ölçüləri, əzəmətli memarlığı ilə Şamaxının o zaman necə nüfuzlu bir mərkəz olduğunu nümayiş etdirir.

Məlumata görə, VII əsrdə Azərbaycana gələn ərəblər Qafqazdakı ilk məscidi 733-cü ildə Dərbənddə, ikincisini isə 743-cü ildə Şamaxıda tikdilər. Əsrlər boyu təbii fəlakətlərə, dağıdıcı müharibələrə sinə gərən Cümə məscidi son yüz ildə daha iki dəhşətli zərbəyə davam gətirdi: erməni yağıları tərəfindən törədilən yanğına və Sovet hakimiyyəti illərində sanki xalqa gözdağı verilməsi kimi yararsız və baxımsız hala salınmağa.

Şəhərin mərkəzində, məşhur Cümə məscidinin yaxınlığında, İmamlı küçəsindəki İmamzadə məscid kompleksi Şamaxının ən qədim abidələrindən hesab edilir.

İsmayıllı rayonunda (Aşıqbayram, Diyallı, Mican, Yeniyol, Topçu, Tağlabiyan kəndlərində) XIX-XX əsrin əvvəllərinə aid məscidlər öz memarlıq üslubuna görə müsəlman Şərq sənətinin klassik nümunəsi hesab olunur. Zeyvə kəndində XIX əsrə aid türbə, Ərəgit kəndində XIX əsrə aid "Yuxarı Ərəgit", "Aşağı Ərəgit" məscidləri də bitkin müsəlman abidələridir. Basqal məscidi qədim və struktur baxımdan maraqlı detallara malikdir.

Ağdaş şəhərində Hacı Məhəmməd ağa məscidinin inşası 1892-ci ildə başlanmış, 1893-cü ilin yayında başa çatmışdır. Məscidin inşası memar Mir Məhəmməd Mir Nadi oğlu tərəfindən icra olunmuşdur.

Azərbaycanı Öyrənən və Tədqiq edən Cəmiyyətin əməkdaşı Cəmil Aleksandroviç-Nasifinin 1926-cı ilə aid məlumatında Ağsuda Şamaxı Cümə məscidinin yaşıdı və tamamilə ona bənzər möhtəşəm məscidin olduğu bildirilir. Nasifinin qeydlərində həmçinin Şıxməzid türbəsi haqqında da məlumat verilir. Rayonun yaşlı sakinlərinin dediyinə görə, Şıxməzid məscidi və türbəsi ötən əsrin 30-cu illərində sovet rejimi tərəfindən həyata keçirilən "mədəni inqilab" tədbirləri çərçivəsində dağıdılıb.

Göyçay şəhərində tarixilik və yüksək memarlıq sənətkarlığı ilə seçilən Yuxarı məscid binasıdır. Məscid 1906-cı ildə ali təhsilli ilk Azərbaycan memarı, istedadlı Zivər bəy

* *Tarix üzrə fəlsəfə doktoru, dosent. AMEA Tarix və Etnologiya İnstitutu.*
*Email: feyakonul@rambler.ru*
*Orcid: 0000-0002-0137- 5037*

Əhmədbəyovun layihəsi əsasında tikilərək başa çatdırılmışdır. Bu məscidin tikinti işlərinə isə 1902-ci ildən başlanılmışdır. Məscidin tikintisində palçığa qatmaq üçün yumurta ağından və sarısından istifadə edilmişdir. 124 min peyğəmbər eşqinə bu məscidə 124 min bişmiş kərpic işlənib. Hacı Axund, Mir Fazil ağa kimi dövrün məşhur din xadimləri bu məscidin ilk alimləri olmuşlar.

**Giriş**

Şirvan bölgəsi milli-mənəvi dəyərlərimizin lokal cəhətlərini və əsas meyarlarını özündə cəmləşdirmişdir. Mənəvi mədəniyyətimizin dövrümüzə qədər gəlib çıxan mühüm komponentləri, etno-mədəni cəhətlərinin vəhdəti məhz Şirvan bölgəsində əhəmiyyətli dərəcədə özünə yer etmişdir. Şirvan Azərbaycanın mədəniyyətinin "ürəyi" sayılır. Bu "ürəyin" özünəməxsus detallarını üzə çıxarmaq mənəvi mədəniyyətimizin əsas xüsusiyyətlərini geniş dairədə əks etdirməyə imkan verir. Bölgə əhalisinin xalq həyatından, zəngin yaradıcılığından qaynaqlanan mənəvi mədəniyyəti bütöv bir sərvət formalaşdırmışdır. Bütün Yaxın və Orta Şərqdə olduğu kimi, Azərbaycanda, o cümlədən Şirvan bölgəsində İslam dini ictimai-siyasi həyatda mühüm rol oynayırdı. Şirvanda mövcud olan qədim, tarixi məscidlər İslam mədəni irsini zənginləşdirən tarixi abidələrimizdən hesab olunur. Şirvan bölgəsində mədrəsələr əhalinin əsas təhsil və təlim ocağı hesab olunurdular.

**I. Şirvan bölgəsində tarixi məscidlər**

İslam memarlığının ən dayanıqlı və inkişaf etmiş memarlıq nümunələrindən biri məscidlərdir. Tarixi mənbələrdə böyük Səlcuq sultanlarının məscidlərin tikintisinə xüsusi maraq göstərdikləri, bunun üçün çoxlu vəsait ayırdıqları da bildirilir. İslam ölkələrində məscidlər təkcə ibadət üçün nəzərdə tutulmurdu, eyni zamanda onun içərisində keçirilən tədbirlər insanlar arasında ünsiyyəti gücləndirmək məqsədi də daşıyırdı. Yarandığı VII əsrin sonlarından təyinatından asılı olaraq, məscidlər arasında müəyyən fərqlər yaranmağa başladı:

məhəllə məscidi ‒ gündəlik beşdəfəlik məscid üçün nəzərdə tutulanlar;

cümə məscidi – kollektiv şəkildə cümə namazı üçün nəzərdə tutulanlar;

kəbirə - mərkəzi şəhər məscidi;

müsəllə ‒ açıq meydanlı, Qurban bayramı üçün nəzərdə tutulan ümumşəhər məscidi.

Cümə məscidi geniş yayılmışdır. Onun memarlıq formaları və dekorativ bəzəkləri hökmdarların əzəmətini və maddi imkanlarını nümayiş etdirməli idi. Bununla yanaşı sadə məscidlər daha müxtəlif olur və məhəllələrdə yerləşməklə gündəlik fərdi dualara şərait yaradır və daha çox yaslar üçün istifadə edilir. Bütün məscidlər ancaq Məkkəyə, Kəbəyə yönəlirlər və bütün dualar ora istiqamətlənərək icra edilir. Belə ki, ora istiqamətlənmə qiblə (tərcümədə "əks tərəfdə yerləşən" deməkdir) adlanır. Məscidlərdəki Məkkəyə yönələn divar da qiblə adlanır. Azərbaycanda – Şirvanda məscidlər məhz bu təyinat üzrə inşa edilmiş və xalqın istifadəsinə verilmişdir. XI-XIII əsrlərdə Azərbaycan ərazisində çoxsaylı kənd-məhəllə məscidləri, böyük camelər tikilmişdir ki, bunlar da öz memarlıq dəyərini bu gün də qoruyub saxlayır. Memarlıq - planlaşma quruluşuna görə İslam memarlığının dəyərli abidələrindən hesab olunan Şirvan bölgəsinin məscidlərinin bir neçəsinin xüsusiyyətini açıqlayaq.

Şirvan memarlığında VII əsrin ortalarından yeni məscid obrazı formalaşmağa başlamışdır. İslam dininin gəlməsi ilə bağlı Azərbaycan ərazisində ilk məscidlər inşa edilmişdir. Onlardan Şamaxı Cümə məscidini nümunə kimi göstərmək olar. Cümə məscidi iri ölçüləri, əzəmətli memarlığı ilə Şamaxının o zaman necə nüfuzlu mahal mərkəzi olduğunu nümayiş etdirir.

Məlumata görə, VII əsrdə Azərbaycana gələn ərəblər Qafqazdakı ilk məscidi 733-cü ildə Dərbənddə, ikincisini isə 743-cü ildə Şamaxıda tikdilər. Ərəblər ilk dəfə şəhərdə çox da böyük olmayan məscid inşa etmişdilər. Şəhərdə məşhur olan Cümə məscidinin dörd minarəsi və üç yarusu vardır. Şamaxıda 1902-ci ildəki zəlzələdən sonra yaradılmış əsas, xüsusi komissiya burada qazıntı, araşdırma apararkən məsciddən qabaq burada Atəşgah və İslamaqədər dini mərasimlərə aid elementlər aşkarladı. Bütün bunlar məscidin atəşgah üzərində inşa olunduğunu təsdiq edir (Azərbaycan tarixi, 1994, s. 152).

"Şamaxı Cümə məscidinin inşaat tarixi ilə bağlı xalq rəvayəti bir neçə ciddi fakt və təhlillərlə təsdiq olunur. 1902-ci ildə növbəti zəlzələdən sonra ağır dağıntıya uğramış bu qədim abidənin durumunu araşdırmaq üçün xüsusi dövlət komissiyası yaradılır. Həmin komissiyanın tərkibində Tiflisdən Şamaxıya gəlmiş Qacar şahzadəsi geoloq Şahqulu Qacar məscidin üstündəki ərəb kitabəsindən Cümə məscidinin əsasının müsəlman tarixi ilə 126-cı ildə (miladi 744) qoyulduğunu aydınlaşdırmışdır. Bu fakta əsaslanan görkəmli alim, memarlıq tədqiqatçısı Şamil Fətullayev Şamaxı Cümə məscidinin Dərbənd Cümə məscidindən (734-cü il) sonra Zaqafqaziyanın ən qədim məscidi olması fikrini irəli sürmüşdür" (Şamaxı ensiklopediyası, 2015, s. 262).

Plan quruluşu da Şamaxı Cümə məscidinin inşaat tarixinə müəyyən işıq salır. Məscidin əsas hissəsinin uzunluğu 46,5 metr, eni 17 metr olan uzunsov düzbucaq biçimli planı var. Onun iri ibadət salonu kvadrat biçimli (13,2×13,2 metr) üç bərabər hissəyə bölünmüşdür. Bu bölümləri bir-birinə üç hündür sivri tağ birləşdirir. Hər bölümün ayrıca mehrabı və giriş qapısı var. Belə quruluşuna görə bəzi araşdırımaçılar Şamaxı məscidini üç salonlu məscid də adlandırırlar.

Azərbaycanın ən qədim və ən iri məscidlərindən biri olan Şamaxı Cümə məscidinin əsası rəvayətə görə VIII əsrdə qoyulmuşdur (Azərbaycan tarixi, 1994, s. 262). Qeyd etmək yerinə düşərdi ki, əzəmətli və gözəl memarlıq quruluşuna malik olan məscid və mədrəsələr qeyd olunan dövrdən də əvvəl elm və mədəniyyət ocağı hesab olunurdu. Hələ üç əsr əvvəl Övliya Çələbi Şamaxıda olmuş və başdan-başa Şamaxını gəzmiş, gördüklərini heyranlıqla qələmə almışdır:

"...Məlumata görə, yetmişə qədər mehrabı, o cümlədən, ən qədim tikili olan Div Əli cümə məscidi vardır. Şəhərdən kənarda xeyli adam tutan böyük Cümə məscidini Şah Səfi tikdirmişdir. Çox yaraşıqlı binadır. Həyatində şəfillər üçün hücrələr də vardır. Vəqfi olmadığından Fərhad paşa Cümə məscidinin qapıları bağlı qalmışdır. Lakin Osmanlı memarlığı üslubunda tikilmiş çox gözəl üslubu olan Cümə məscididir. Göydəmirzadə Cümə məscidi indi mədrəsədir. İçərisində şəhərin müftisi tədris işi ilə məşğuldur. Yeddi mədrəsə, bir ictimai yeməkxana binası Şah Xudabəndənindir" (Azərbaycan tarixi, 1994, s. 152).

"1846-cı ildən etibarən Şamaxı Qafqazın ən böyük quberniyalarından birinin mərkəzi idi. 1859-cu ildə növbəti zəlzələ şəhəri alt-üst etdi və bununla əlaqədar quberniya mərkəzi Bakıya köçürüldü. Quberniya mərkəzinin köçürülməsinə baxmayaraq Qafqaz canişininin müraciəti və çar administrasiyasının göstərişi ilə Şamaxı şəhərində tez bir zamanda bərpa işləri həyata keçirildi. Məscidin bərpası əslən Şamaxıdan olan Qasım bəy Hacıbababəyova etibar olundu. Möhkəm və dayanıqlı, min illərin fəlakətlərinə sinə gərən Cümə məscidi yenidən öz qapılarını mömin müsəlmanların üzünə açdı" [Şamaxı ensiklopediyası, 2015, s. 262]. 1902-ci ildəki növbəti zəlzələdən sonra əsrlərə davam gətirmiş, dayandığı məkana bağlı Cümə məscidi yerində qalırdı. Zəlzələdən sonra məscidin bərpasının əvvəlki özül üzərində aparılmasına qərar verildi. Bərpa öncə Zivər bəy Əhmədbəyovun, sonra isə polşalı memar-mühəndis Yozef Ploşkonun əsaslı və böyük layihəsi əsasında aparılırdı. Ploşkonun bir qədər fərqli və orijinal layihəsi əsasında aparılan bərpa işləri sona qədər tamamlanmadı. Məscid tamamlanmamış halda belə, öz əzəmətini qoruyub saxlayırdı" (Fətullayev-Fiqarov, 2013, s. 157). "1918-ci ildə silahlı erməni-daşnak dəstələri tərəfindən törədilən Mart qırğınları zamanı Şamaxı əhalisinin xeyli hissəsi məsciddə sığınacaq

tapmağa çalışdı. Lakin azğınlaşmış erməni quldurları heç nəyə baxmadan məscid binasını da insanlarla bərabər yandırmaqdan çəkinmədilər. Beləliklə, əsrlər boyu təbii fəlakətlərə, dağıdıcı müharibələrə sinə gərən Cümə məscidi son yüz ildə daha iki dəhşətli zərbəyə davam gətirdi: erməni yağıları tərəfindən törədilən yanğına və Sovet hakimiyyəti illərində sanki xalqa gözdağı verilməsi kimi yararsız və baxımsız hala salınmağına görə" (Şamaxı ensiklopediyası, 2015, s. 262).

Şəhərin mərkəzində məşhur Cümə məscidinin yaxınlığında, İmamlı küçəsindəki İmamzadə məscid kompleksi Şamaxının ən qədim abidələrindən hesab edilir. Burada IV imam Zeynalabdinin övladlarından biri – Əllamə Seyid Məhəmməd Saleh Əl-Müdərris dəfn edilib. 1910-1917-ci illərdə şamaxılı məşhur memar Zivər bəy Əhmədbəyovun layihəsi ilə məscid yenidən tikilib. 1918-ci ilin mart qırğınında erməni daşnaklar İmamzadənin içərisinə 200-ə yaxın insanı doldurub diri-diri yandırıblar" (Azərbaycan tarixi, 1994, s. 152).

Memarlıq-planlaşdırma və həcm-məkan baxımından daha inkişaf etmiş bir məscid layihəsi 1918-ci ildə erməni daşnakları tərəfindən dağıdılmış Şamaxıdakı "İmam" məscidi (1910-1917-ci illər) idi. Bu layihəyə əsasən, "İmam" məscidi taxtapuşun rahatlığını təmin etmək üçün mərkəzdə dörd dirəyi olan proporsional kvadrat formaya malik idi və keçmiş dövrün yarımqaranlıq dua zallarından fərqli olaraq, üç tərəfdən pəncərə boşluqları ilə açılmışdı. Məscidin sol tərəfində xidmət otaqları üçün kiçik tikili və ikinci mərtəbədə qadınların ibadət etməsi üçün ikimarşlı pilləkən var idi. Dua zalının interyeri isə sütunların oxlarında daxili məkanın görüntüsünü dəyişdirən pilyastrlarla bəzədilmişdi. İfadəli kapitelləri olan sütunların saxladığı tirli yastı taxtapuş zalın interyerini əhəmiyyətli dərəcədə dəyişdirmişdi. Ox üzərində kvadrat şəkilli mehrab İslamın dayaq simvolu kimi aparıcı mövqe tuturdu. Yan aşırımlarla müqayisədə daha geniş olan mərkəzi aşırım da mühüm rol oynayırdı (Fətullayev-Fiqarov, 2013, s. 276). Zalın yan tərəflərində olan iki qapı mehraba doğru istiqamətlənmişdi. Beləliklə, modul sistemi əsasında tərtib olunmuş zalın kvadrat planı yeni keyfiyyət, interyer isə maraqlı həcm həlli qazanmış, memarlıq kütlələrinin plastikası meydana çıxmışdı. Burada tağ, qübbə və günbəzlərin konstruktiv formalarının üstünlük təşkil etdiyi tektonik üsullar mövcud deyil. Şamaxıda binalar həmişə güclü daş günbəzlərlə layihələndirilir, bəzəkli interyerlər qübbələrlə bəzədilirdi. Tez-tez baş verən bu böyük zəlzələlər əhalidə qorxu yaratdığından buradakı binalar qalın divarlar, ağır qübbə və və günbəzlər əsasında layihələndirilirdi (Bayramoğlu, 1997, s. 89).

Azərbaycan Respublikası Dövlət Tarix Arxivindəki müvafiq qovluqları nəzərdən keçirərkən Şirvan əhalisinin məişətində, həmçinin cəmiyyətdə İslam dininin əsaslı rolunu görmək mümkündür. Sənədlərdə həmçinin Şamaxı şəhərində İmamzadə məscidinin plan və fasadı diqqət çəkir. Məscidin plan və fasadı konkret konturlarla və səliqəli çəkilmişdir (Azərbaycan Respublikası Dövlət Tarix Arxivi [ARDTA], iş 52).

Arxiv məlumatlarına əsasən, Şamaxı məscidinə aid olan 37 vəqf obyektləri üç illik müddətə icarəyə verilmişdi (ARDTA, iş 7345).

Sənədlərdə, həmçinin Şamaxı məscidinə aid olan vəqf obyektlərinin Molla Novruz Məhəmməd oğluna müvəqqəti və kirayə verilməsi haqqında məlumatlar öz əksini tapıb (ARDTA, iş 5272).

V.Quliyeva arxiv materiallarına əsaslanaraq yazmışdır:

"Şamaxı, ...Göyçay qəzalarında 666 sünni məscid və 582 prixod fəaliyyət göstərirdi. Bu illərdə Şamaxı məscidində 11 prixod və 4 müəzzin, qəzada 31 kiçik məscid, 11 axund fəaliyyət göstərirdi" (Кулиева, 2003, s. 54).

Qeyd etmək yerinə düşərdi ki, əzəmətli və gözəl memarlıq quruluşuna malik olan məscid və mədrəsələr qeyd olunan dövrdən əvvəl də elm və mədəniyyət ocaqları hesab olunurdu. Hələ

üç əsr əvvəl Övliya Çələbi Şamaxıda olmuş və başdan-başa Şamaxını gəzmiş, qeydlər aparmış, gördüklərini heyranlıqla qələmə almışdır (Əsədli, 2023, s. 284).

XIX əsrdə bölgədə yeni tipli məktəblərin açılması mütərəqqi hadisə sayılırdı. Eyni zamanda səviyyəsi yüksək ziyalıların dərs demək üçün məktəblərə cəlb edilməsi bu sahədə xeyli irəliləyiş yaratmışdı. Geridə qalmış din xadimləri bu tip məktəblərə yaxın buraxılmırdı. Məktəblərlə bağlı keçmişə nəzər saldıqda görmək olar ki, hələ xanlıqlar dövründə Şirvanda xeyli sayda mədrəsələr və mollaxanalar fəaliyyət göstərirdi. Şamaxıda belə mədrəsələr Cümə məscidi, Hacı Qasım məscidi, Yuxarı Qala məscidi, Əbu Səlim Xorasan məscidi, İmamlı məscidi və digər məscidlərdə fəaliyyət göstərirdi (Niyazlı, 2014, s. 236). İsmayıllı rayonunda (Aşıqbayram, Diyallı, Mican, Yeniyol, Topçu, Tağlabiyan kəndlərində) XIX-XX əsrin əvvəllərinə aid məscidlər öz memarlıq üslubuna görə müsəlman Şərq sənətinin klassik nümunəsi hesab olunur. Zeyvə kəndində XIX əsrə aid türbə, Ərəgit kəndində XIX əsrə aid “Yuxarı Ərəgit”, “Aşağı Ərəgit” məscidləri də bitkin müsəlman abidələridir. Basqal məscidi qədim və struktur baxımdan maraqlı detallara malikdir. Qafar Cəbiyev bildirib ki, ümumi sahəsi 161 kvadratmetr olan məscidin 111 kvadratmetrində ilkin arxeoloji tədqiqatlar əsasən başa çatdırılıb. Nəticədə XI əsrdən etibarən bu günədək formalaşan və 3,5 metr qalınlığı olan 6 tikinti qatı qeydə alınıb. Həmin tikinti qalıqlarının da ən möhtəşəmi 2m x 2m ölçüdə olan daş sütunlar üzərində inşa edilən və 32,4 kvadratmetr sahəni əhatə edən məscid binasıdır. Məscidin cənub-qərb tərəfindəki sütunun yanında kürsü aşkar olunub. Kürsünün altı bir neçə cərgədən ibarət daşla hörülərək üstü sarı torpaq və gəclə suvanıb (Basqalda arxeoloji tədqiqatlar davam edir, s. 1). “Bir müddət öncə ərazi təmizlənərkən oradan məscidin kitabəsi də tapılıb. Həmin kitabəyə əsasən, Basqal məscidinin 1568-ci ildə “həqiqətlərin bürhanı Sufi-Dərvişin əmri ilə” inşa olunduğu bildirilir. Ötən əsrin 80-ci illərində məscid ərazisindən tapılan, oradakı yardımçı binanın divarına bərkidilmiş digər bir kitabədə isə Şeyx Məhəmməd və onun oğlu Şeyx Səfainin adı çəkilir. Bütün bunlar yerli sakinlərin həmin məscidi “Şeyx Məhəmməd məscidi” adlandırdıqlarından xəbər verir. Arxeoloji axtarışlar zamanı aşkara çıxan digər maddi mədəniyyət qalıqları, xüsusən də rəngarəng çeşidli keramika nümunələri də Şeyx Məhəmməd məscidinin XVI əsrin ortalarında inşa olunduğunu təsdiqləyir” (Basqalda arxeoloji tədqiqatlar davam edir, s. 1).

Ağdaş şəhərində Hacı Məhəmməd ağa məscidinin inşası 1892-ci ildə başlanmış, 1893-cü ilin yayında başa çatmışdır. Məscidin inşası memar Mir Məhəmməd Mir Nadi oğlu tərəfindən icra olunmuşdur. İstedadlı memar Ağdaş rayonunun Dəhnəxəlil kəndindən idi. Əvvəlcə öz kəndlərində 1884- cü ildə məscid inşa etmişdir. Hər iki məscid dövrümüzə qədər gəlib çıxmışdır. Məscidin ibadət zalında səs əksetdirici oyuq da düzəldilmişdir. Məscid şərq və cənub tərəfdən 13 pəncərə, şimal tərəfdən yalnız 1 pəncərə ilə işıqlandırılmışdır. Məsciddə həmçinin, imam-xətib üçün hücrə də vardır. Sovet dövründə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Ağdaşda da adı çəkilən məscid yararsız hala salınmışdır. Klassik memarlıq üslubu saxlanılmaqla məscid 2008-ci ildə təmir olunmuşdur.

Azərbaycanı Öyrənən və Tədqiq edən Cəmiyyətinin bir əməkdaşı − Cəmil Aleksandroviç-Nasifinin 1926-cı ilə aid məlumatında Ağsuda Şamaxı Cümə məscidinin yaşıdı və tamamilə ona bənzər möhtəşəm məscidin olduğu bildirilir. Nasifinin qeydlərində həmçinin Şıxməzid türbəsi haqqında da məlumat verilir. Rayonun yaşlı sakinlərinin dediyinə görə, Şıxməzid məscidi və türbəsi ötən əsrin 30-cu illərində sovet rejimi tərəfindən həyata keçirilən “mədəni inqilab” tədbirləri çərçivəsində dağıdılıb. İlkin tədqiqatlar zamanı üst qatdan aşkar olunmuş tapıntıların təhlili göstərir ki, Şıxməzid məhəlləsindəki məscid XVI əsrin II yarısından intensiv istifadədə olub.

Göyçay şəhərində tarixilik və yüksək memarlıq sənətkarlığı ilə seçilən Yuxarı məscid binasıdır. Məscid 1906-cı ildə ali təhsilli ilk Azərbaycan memarı Zivər bəy Əhmədbəyovun

layihəsi əsasında tikilərək başa çatdırılmışdır. Bu məscidin tikinti işlərinə isə 1902-ci ildən başlanılmışdır. Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə üzvi surətdə əlaqələndirən Zivər bəy (1873, Şamaxı-16.2.1925, Bakı) Şamaxı və Bakı şəhərlərində bir sıra məscidlərin, məktəb, xəstəxana və doğum evlərinin, həmçinin çoxlu yaşayış evlərinin layihəsini vermişdi. Yerli ağsaqqallar məscidin tikilməyə başlanılmasını 1896-cı ilə, tamamlanmasını isə 1902-ci ilə aid edirlər. Biz bu fakta daha çox önəm veririk. Çünki məscidin divarına onun tamamlanma ili 1902-ci il olaraq həkk olunmuşdur. Məscidin tikilməsi haqqında ilk dəfə şəhərin tanınmış dindarlarından olan Hacı Ələsgər axund məsələ qaldırmışdır. Məscid Göyçay varlılarının verdiyi ianə ilə tikilmiş, bütün dindarlar bu nəcib işdə iştirak etmişlər. Həmin varlılardan tacir Hacı Məmmədhəsən və tacir Hacı Hacıağa qardaşlarının xüsusi xidmətini qeyd etmək olar. Məscidin tikintisində palçığa qatmaq üçün yumurta ağından və sarısından istifadə edilmişdir. 124 min peyğəmbər eşqinə bu məscidə 124 min bişmiş kərpic işlənib. Vaxtilə məscidin S.Vurğun küçəsinə açılan darvazaları olmuşdur. Yardımçı binada isə uzun müddət oğlan və qız mollaxana məktəbi olmuşdur. Hacı Axund, Mir Fazil ağa kimi dövrün məşhur din xadimləri bu məscidin ilk alimləri olmuşlar. Sovet dövründə dinə qarşı amansız mübarizə nəticəsində 1931-ci ildə məscid bağlanaraq taxıl anbarına çevrilmişdir (Zəngin maddi mədəniyyət). 1944-cü ildə o, yenidən fəaliyyətə başlamışdır. Ətraf rayonların dindarları son illərədək bu məscidə ibadətə gələrdilər. Hazırda məscid zövqlə təmir olunmuş, yanında digər yardımçı binalar tikilmişdir. Yuxarı məscidin yerində kiçik havarrı bir hücrə vardı. Mərsiyə oxumaq üçün ilk Aşura günü Şuşa qalasından xanəndə Murtuza (sonralar Xalq artisti Bülbül) məscidə dəvət olunmuşdur. Qızıl pula mərsiyə oxuyan Murtuza o zaman 13 yaşında idi. Məscid ikimərtəbəli bina hündürlüyündədir. Uzunluğu 22 m, eni 20 m-dir. Bu böyük salonda eyni vaxtda 250 nəfər mömin ibadətlə məşğul ola bilir. Bina üç tərəfdən hörgü boyunca yuxarısı qövsvari olan oymalarla həm içəridən, həm də çöl tərəfdən taxçalarla müşayiət olunur. Həmin taxçalar akustika yaratmaq üçün pəncərə əvəzi olmuş, sonradan onların bir neçəsi nazik qatla hörülmüşdür. Salonun içində üç ədəd sütun vardır. Binanın girişi – ön hissəsi təxminən 3 metr enində salonun bütün eni boyu içəridə eyvandan (şabxanadan) ibarətdir. Eyvan da sütunlar üzərində dayaq tutub. Nəticədə moizə dinləyiciləri üçün əlavə yer qazanılmışdır. Həmin balkona qalxmaq üçün çöldə ön tərəfdən pilləkən qoyulmuşdur. Məscidin ön və arxa tərəfindəki pəncərə şəbəkələri çevrə və qövs şəkilli olub, nadir dəstəkli gözlüklərə ayrılmışdır. Hörgüdə bütün divar boyu (ön və arxa hissədə) oymalı naxışlar pəncərə şəbəkələrinin görkəminə klassik ahəngdarlıq, həmçinin qüdrətli sənət nümunəsinin simasını verir. Məscidin həyatində yardımçı kiçik və zövqlü otaqlar tikilmişdir. Onlardan biri pilləkəni ön tərəfdən görünməz etməklə məscidin giriş hissədən görkəminə kölgə salır. Buna baxmayaraq, məscid respublikada tarixi, ən mükəmməl memarlıq nümunələrini özündə toplayan maddi abidələrimizdən biri kimi, xüsusən Allah evi kimi misilsizdir. Məscidə yardımçı sahə kimi həmin üslubda tikilmiş bina bir müddət texniki peşə məktəbinin yataqxanası olub. Onun üst örtüyü yandıqdan sonra bu əlavə korpusu məşhur xeyriyyəçi, RF Dumasının üzvü olan F.Əhmədov əvvəlki arxitektura görkəmini saxlamaqla təmir etdirdi. Qeyd edək ki, burada əlavə ikimərtəbəli, memarlıq baxımından diqqəti cəlb edən mədrəsə tikildi. Qeyd edək ki, vaxtilə məscid olmuş və sonradan 4 saylı məktəbə çevrilmiş bina yandıqdan sonra onun yerində yeni, ucaminarəli məscid tikildi (Zəngin maddi mədəniyyət).

Ucar rayonunda 2 tarixi Cümə məscidi də mövcud olmuşdur. Köhnə Cümə məscidi XX əsrin əvvəllərində inşa edilmişdir. 1953-cü ildə isə məscid dağılmağa tərk edilmişdir. Dağıntıdan sonra xalqın vəsaiti ilə yeni Cümə məscidi inşa edilmişdir. Bu məscid də bir müddət fəaliyyətdən sonra bağlanmışdır. 1977-ci ildə məscid tamamilə bağlanmış, Sovet hökuməti tərəfindən anbara çevrilmişdir. Hal-hazırda Ucar şəhər Cümə məscidi fəaliyyət göstərir. Məscid 1989-cu ildə kərpicdən inşa edilmişdir. Dörd tağa malik məscidin tavanı taxtadan, döşəməsi mərmərdən

ibarətdir. Hündürlüyü 5 metr olan mehrab divarın içində yerləşib və tağvari formaya malikdir. Minbəri isə taxtadan düzəldilmişdir, 8 pillədən ibarətdir.

Əvvəlki ənənələrə sadiq qalaraq, məscidlər dövrümüzdə inşa olunarkən aşağıdakılar diqqət mərkəzində saxlanılır:

Məscidin sahəsi gələcəyin tələblərini nəzərə almaqla müəyyənləşdirilməlidir;

Məscidin tikilişində sadəliyə riayət edilməlidir;

Məscid qeyri-müsəlmanların məbədlərinə bənzədilməməlidir.

Minarəsinə görə məscidlər bir neçə formada inşa olunur ki, onların ən tanınmışları aşağıdakılardır:

Minarəsi küncdə yerləşən məscidlər − Kazan tatarlarının memarlığı, əsasən şəhərlərdə yerləşir;

İki minarəli məscid − iki minarəli, günbəzli məscid, Yaxın və Orta Şərq, Mərkəzi Asiya üçün daha xarakterikdir;

Minarəsi çardağında olan məscid − Çardaqdakı minarə səkkiztərəfli və ya silindrik şəklində olur. Minarə bəzən iki və ya üç mərtəbəli olur.

Qeyd olunmalıdır ki, Şirvan bölgəsi üçün iki minarəli, günbəzli məscid forması xarakterik olmuşdur.

**II. Şirvan məscidləri mənəvi dəyərimizdir**

Azərbaycanın mühüm tarixi - etnoqrafik bölgələrindən biri olan Şirvan bölgəsi əhalisinin milli-mənəvi dəyərlərində əsas mövzu sayılan məscidlərin araşdırılması bütövlükdə Azərbaycanın mədəni irsinin öyrənilməsi, tədqiq edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ədəbi-ictimai aləminə yeni düşüncəli, istedadlı bir ziyalı təbəqəsi gəlməkdə idi. Bu ədəbi-ictimai aləmdə Şirvan bölgəsinin ədəbi mühitinin də önəmli yeri olmuşdur. Bu dövrdə bölgədə S.Ə.Şirvani, M.Ə.Sabir, H.Zərdabi, S.Ünsizadə, M.Hadi və başqa böyük yazıçılar və bir çox şairlər yetişmişlər. Onlar zəmanəsinə görə bəzi yeni tipli məktəblər açmaqla bərabər, məscid məktəblərini də bərpa edirdilər. Belə ki, Səid Əfəndi Ünsizadənin təşəbbüsü və vasitəçiliyi ilə Şamaxı ruhani məclisinin nəzdində 1875-ci ildən fəaliyyətə başlayan “Məclis məktəbi”ndə də dünyəvi elmlərə (o dövrdə mövcud olan digər məktəblərə nisbətən) geniş yer verilirdi. Səid Ünsizadə əfəndi Şamaxıda məscid məktəblərini və ruhani məclisini nizamlayır, eyni zamanda da dünyəvi elmlərin yayılması və mənimsənilməsi üçün tədbirlər görürdü.

XIX-XX əsrin əvvəlləri bütün Azərbaycanda olduğu kimi, Şirvan bölgəsində də mənəvi mədəniyyətin bir çox sahələri nəzərə çarpacaq dərəcədə inkişaf və tərəqqi ilə səciyyələnir. Tarixə nəzər saldıqda görərik ki, bölgədə ədəbiyyat və fəlsəfə, musiqi, tibb, təbabət, astronomiya və sair elmlər üzrə fəhmi və elmi biliklərə yiyələnmə qabiliyyəti, istedadlı və şöhrətləri hər tərəfə yayılmış alimlər yetişmişdir. Lakin bu heç də asan başa gəlməmişdi. Bu sahələrdə inkişafla bərabər islami dəyərlərə də üstünlük verilirdi.

Şirvan bölgəsi camaatı İslam dininin demək olar ki, bütün qayda və qanunlarına əməl edirdi. Toplanılan materiallar əsasında belə qənaətə gəlmək olar ki, İslam dini əhalinin həyatına əsaslı şəkildə nüfuz etmişdir və müəyyən, intizamlı həyat tərzini formalaşdırmışdır. Hər bir müsəlmanın beş əsas vəzifəsi vardır ki, bu vacib vəzifələr müsəlmanın bütün həyatını idarə edən əsas prinsiplər hesab olunmalıdır: Vahid Allaha inam, namaz, oruc, həcc, zəkat. XIX-XX əsrin əvvəllərində də Şirvan bölgəsinin əhalisi bu əsas prinsipləri bilir, özlərinin mənəvi borcu və vəzifələri hesab edir, onlara yetərincə əməl etməyə çalışırdılar. Bölgədə evlənmə və ölüm

hallarında da İslam dininin adət və mərasimlərini davamlı olaraq müşahidə etmək olar. Şirvanda hər bir kəndin böyük nüfuza malik mollası olurdu.

Evlənmə zamanı nikah mollalar tərəfindən kəsilirdi. Məscidlər dini vəzifələri yerinə yetirmək baxımından əsas məkan hesab edilirdi (Əsədli, 2017, s. 102).

Bölgə milli-mənəvi dəyərlərimizin lokal cəhətlərini və əsas meyarlarını özündə cəmləşdirmişdir. Mənəvi mədəniyyətimizin dövrümüzə qədər gəlib çıxan mühüm komponentlərindən olan məscidlər dini - mədəni cəhətlərin vəhdəti kimi məhz Şirvan bölgəsində əhəmiyyətli dərəcədə özünə yer etmişdir.

Şirvan Azərbaycanın mədəniyyətinin "ürəyi" sayılır. Və bu "ürəyin" özünəməxsus detallarını üzə çıxarmaq mənəvi mədəniyyətimizin əsas xüsusiyyətlərini geniş dairədə əks etdirməyə imkan verir. Bölgə əhalisinin xalq həyatından və zəngin yaradıcılığından qaynaqlanan bütöv bir sərvəti – məscidlər xalqın mənəvi dəyərləri sferasında mühüm yer tutur.

Azərbaycanda mövcud olan qədim və tarixi məscidlər İslam mədəni irsini zənginləşdirən tarixi abidələrimizdən hesab olunur.

Tarixin sonrakı dönəmlərində Azərbaycanda müxtəlif quruluşlu, gözəl məscidlər inşa edilmişdir. Bu məscidlərin bəzisi son illər Azərbaycan hökumətinin diqqət və qayğısı ilə təmir-bərpa edilərək Allaha tapınan insanları, cəmi müsəlmanları Tanrı dərgahına yaxınlaşdıran ən müqəddəs məkan olaraq qalmaqdadır.

XXI əsrin əvvəllərində mədəni dəyərlərin qorunub saxlanılması zərurəti, bu sferada elmi-tədqiqat işlərinə diqqət nəzərə çarpacaq qədər artmışdır. Son vaxtlar mənəvi irsimizi tanıtmaq, xalqımızın çoxəsrlik, zəngin mədəniyyətinin səciyyəvi mənzərəsini canlandırmaq istiqamətində hərtərəfli işlər görülməkdədir. Qeyd olunan məsələlər mövzunun aktuallığını şərtləndirən mühüm və əsas amillərdən biri hesab olunur.

Azərbaycan tarixən müxtəlif inancların, fərqli dini konfessiyaların birgə və əmin-amanlıq şəraitində yaşadığı ölkədir. Respublikamızda kilsələr, sinaqoqlar, məscidlər və müxtəlif dini məbədlər eyni vaxtda yanaşı fəaliyyət göstərir. Silsilə yazılarımıza, şəxsi müşahidələrimizə, müxtəlif mənbələrə, o cümlədən də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytına əsaslanaraq ölkə ərazisində mövcud olan qədim məscidlər haqqında xeyli məlumat verilir. Burada Azərbaycan əhalisinin böyük əksəriyyətinin – təxminən 95 faizdən çoxunun etiqad etdiyi İslam dininin müqəddəs ibadətgahlarından – məscidlərdən söhbət açılır. Ölkə ərazisində, demək olar ki, hər bir rayon və şəhərdə böyük və kiçik olmaqla - onlarla məscid fəaliyyət göstərir.

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin rəsmi saytında yer alan məlumata görə, Azərbaycanda 1834 məscid (Naxçıvan Muxtar Respublikası və keçmiş işğal olunmuş rayonlar istisna olmaqla) mövcuddur. Qeyd edək ki, sovetlər dövründə respublikada cəmi 17 məscid fəaliyyət göstərib. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, daha doğrusu, 1990-cı ildən indiyədək ölkədə 814 məscid inşa olunub. Hazırda ölkədə 306 məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur. 1993-2003-cü illər ərzində ölkədə 517 məscid inşa olunub, 200-ə yaxın məsciddə əsaslı təmir işləri aparılıb, 16 məscid yenidən qurulub. Dövlət vəsaiti hesabına 1998-ci ildə Bibiheybət məscid-ziyarətgah kompleksinin yenidən qurulmasına başlanılıb, 1999-cu ildə rəsmi açılışı olub. 2003-2013-cü illər ərzində ölkədə 216 məsciddə inşa, əsaslı təmir və yenidənqurma işləri aparılıb, o cümlədən dövlət vəsaiti hesabına 10 məscid tikilib və ya əsaslı bərpa olunub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırığına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy məscidində əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Prezidentin sərəncamlarına əsasən, əsaslı təmir işi aparılan Şamaxı Cümə məscidinin açılışı olub, prezident şəxsən məscidin açılışında iştirak edərək nitq söyləyib. Onu da qeyd etmək

lazımdır ki, Heydər Əliyev Fondu tərəfindən 7 məscid və ziyarətgah – Daşkəsən şəhər Cümə məscidi, Gəncə şəhər Şah Abbas və Həzrət Zeynəb məscidləri, Xəzər rayonu Buzovna qəsəbəsi Cümə məscidi, Mərdəkan qəsəbəsi Pirhəsən ziyarətgahı, Binə qəsəbəsi Möhsün Səlim və İmam Rza məscidləri inşa və ya əsaslı təmir olunub.

Azərbaycan xalqının mənəviyyatını, həyat tərzini islam dəyərləri olmadan təsəvvür etmək çətindir. İslam dininin ölkəmizin müqəddəratında, xalqımızın taleyində müstəsna, birləşdirici və mütərəqqi rol oynaması danılmaz tarixi həqiqətdir. Xalqımızın genetik yaddaşında dərin iz qoymuş islam azərbaycanlıların vahid xalq kimi təşəkkül tapmasına, onların milli kimliyinin, dövlətçilik ənənəsinin, həmçinin mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir. Bu mənada məscidlər dini-mənəvi dəyərlərimizin əsas sferasına aiddir.

Lakin bu da reallıqdır ki, Azərbaycan xalqı islam sivilizasiyasına mənsub olmaqla yanaşı, özündə ümumbəşəri, sivil, dünyəvi, tolerant və multikultural dəyərləri yaşadır. Bu baxımdan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, vətəndaş cəmiyyətinin bərqərar olunması istiqamətində inamla addımlayan Azərbaycan islam dünyasında özünəməxsusluğu ilə fərqlənir. Çünki Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynayan ölkəmiz dünyada dinlər və sivilizasiyalararası dialoqun inkişafına, yer üzündə sülh və harmoniyanın bərqərar olmasına mühüm töhfələr verir, unikal birgəyaşayış və nümunəvi multikulturalizm modeli təqdim edir. Beləliklə, Azərbaycan həm ümumbəşəri, həm də milli-mənəvi dəyərlərinə, o cümlədən tarixi müqəddəratında mütərəqqi rol oynamış Islam dininin yüksək mənəvi-əxlaqi prinsiplərinə sadiq qaldığını göstərir.

**Nəticə**

Tarixin sonrakı dönəmlərində Şirvanda müxtəlif quruluşlu, gözəl məscidlər inşa edilmişdir. Bu məscidlərin bəzisi son illər Azərbaycan hökumətinin yaxından qayğısı ilə təmir, bərpa edilərək Allaha tapınan insanları Tanrı dərgahına yaxınlaşdıran ən müqəddəs məkan olaraq qalmaqdadır.

Hazırda Ağsuda mövcud olan Şeyx Dursun, Pir Bəxtiyar, Şeyx Əhmədli türbələri və Bilal Əfəndi məscidi ölkə və yerli əhəmiyyətli dini abidələrdən hesab olunur. Basqalda qiymətli memarlıq abidəsi Hacı Bədəl məscidi 1854-cü ildə bənna Allahi və Səttar tərəfindən tikilmişdir.

Şamaxı rayonunda Pirmərdəkan məqbərəsi, Qoşa minarəli Cümə məscidi, şəhərin mərkəzində, İmamlı küçəsindəki İmamzadə piri və Şahixəndan məqbərəsi, Kələxana kəndindəki türbələr kompleksi, Yeddigünbəz türbələr kompleksi tarixi əhəmiyyətli abidələr olmaqla bərabər, keçmişdə və müasir dövrdə müsəlman camaatının hörmət və ehtiramla ziyarət etdikləri ocaq-pir yerləri olmuşdur. Verilən məlumata görə, vaxtilə şəhərdə 36 məscid var idi, tez-tez baş verən zəlzələlər nəticəsində əksəriyyəti dağılıb aradan getmişdir.

1918-1920-ci illərdə məscidlər daha çox siyasi məqsədlər üçün istifadə olunub. Mart soyqırımı zamanı Bakı qoçuları şəhəri erməni daşnaklardan müdafiə etmək üçün məscidlərdə yığıncaqlar keçiriblər. Nəriman Nərimanov aprel inqilabından sonra Bakıya gəlişi zamanı məsciddə yığıncaq keçirib, əhali ilə söhbətlər aparıb.

Azərbaycan xalqı tarixən öz dini və mənəvi dəyərlərini uca tutub, onları qoruyaraq zamanın sınağından keçirməyi bacarıb. Prezident İlham Əliyevin Şamaxıdakı Cümə Məscidinin açılışı zamanı söylədiyi fikirlər bunu bir daha sübut edir: "Biz bütün işləri möhkəm təməl üzərində, dəyərlər üzərində qururuq. Milli-mənəvi dəyərlər bizim üçün hər şeydən üstündür. Biz öz dini və milli dəyərlərimizə sadiqik. Bu möhkəm təməl üzərində müasir dövlət, müasir Azərbaycan qururuq".

Azərbaycan xalqı bu günədək məhz milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib. Milli-mənəvi dəyərlərə

bağlılığın qorunub saxlanması dövlət başçısı İlham Əliyevin də daim diqqətindədir. Dövlət başçısının sözlərinə əsasən, məhz bu dəyərlər bizi bir xalq kimi qoruyub saxlayıb və bu gün - müstəqillik dövründə Azərbaycanda dövlət quruculuğu prosesi də məhz milli-mənəvi dəyərlər üzərində həyata keçirilir.

Mənəvi dəyərlərin əsas sferalarından biri də onlara məxsus dini ibadətgahların mövcud olmasıdır. İslami dəyərlərin həyat normasına çevrildiyi qədim Şirvan şəhərlərində onlarla məscid olmuşdur. Məscid namaz qılınan məkan olaraq şirvanlıların dini ibadətgah yeridir. Bölgədə məscidlər həm təhsil ocağı, həm də insanların bir-biri ilə ünsiyyət qurduğu məkan olaraq da istifadə edilmişdir. İslam ölkələrində, o cümlədən Azərbaycanda – Şirvanda məscidlər təkcə ibadət üçün nəzərdə tutulmurdu, eyni zamanda orada keçirilən tədbirlər insanlar arasında ünsiyyəti gücləndirmək məqsədi daşıyırdı. Elə buna görə də, məscid əhəmiyyətli bir məkan kimi "Allahın evi", "peyğəmbərlərin məkanı" və "hər təqvalı insanın sarayı" kimi vəsf olunur.

Mövzu işlənilərkən dəyərli mənbələrdən və arxiv materiallarından, tarixi-etnoloji ədəbiyyat materiallarından, mövzuya həsr olunmuş bir sıra əsas və ümumiləşdirilmiş əsərlərdən istifadə olunması, həmçinin bölgə rayonlarından toplanılan materialların tədqiqata cəlb edilməsi əhəmiyyətli, vacib və mühüm cəhətlərdən biridir.

Arxiv materialları əsasən XIX-XX əsrin əvvəllərini əhatə edir. Nəzərdən keçirilən bu sənədlər bölgə və onun ayrı-ayrı rayonlarında mövcud olan dini mənəvi mühit bu vacib sənədlərdə, həm də muzey fondlarından əldə edilən materiallarda öz əksini tapmışdır.

## ƏDƏBİYYAT

Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 290, siyahı 1, iş 52

Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 290, siyahı 8, iş 5272.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 291, siyahı 2, iş 7345.

Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). I cild. B: Azərbaycan, 1994, 687 s.

Basqalda arxeoloji tədqiqatlar davam edir. https://science.gov.az/az/news/open/11438. 04.11.2019

Bayramoğlu A. Şamaxıda maarif və maarifçilik (XIX əsrin ortalarından mart 1918-ci ilə qədərki ədəbi mühit). B.: Maarif, 1997, 240 c.

Əsədli K. XIX-XX əsrin əvvəllərində Şirvan bölgəsinin mədəni irsi. B: Təhsil, 2023, 400 s.

Əsədli K. XIX-XX əsrlərdə Şirvan bölgəsinin etnoqrafik səciyyəsi. B: Elm və Təhsil, 2017, 172 s.

Fətullayev-Fiqarov Ş. Bakı memarları. XIX əsrin sonu-XX əsrin əvvəllərində. B: Şərq-Qərb, 2013, 296 s.

Niyazlı B. Şamaxı xanlığı. B: Nurlar, 2014. 384 s.

Şamaxı ensiklopediyası. B: Şərq - Qərb, 2015, 430 s.

Zəngin maddi mədəniyyət. https://1905.az/goycayin-maddi-medeniyyeti/

Кулиева В. Роль и позиция мусульманского духовенства в социально - политической и культурной жизни Азербайджана в XIX- начале XX вв.. в ракурсе армяно азербайджанских политических отношений. Б.:2003, 371 с.

## РЕЗЮМЕ

***Кенуль АСАДЛИ***

***Мечети Ширванской области в сфере духовных ценностей азербайджанского народа***

***Ключевые слова:*** *Ширван, духовная культура, ислам, мечеть, критерии*

Регион вобрал в себя локальные аспекты и основные критерии наших национальных и моральных ценностей. Важные компоненты нашей духовной культуры, дошедшие до нашего времени, единство этнокультурных аспектов в значительной степени нашли свое место в Ширванском регионе. Как и на всем Ближнем и Среднем Востоке, ислам играл важную роль в общественно-политической жизни Азербайджана и Ширванской области.

Древние исторические мечети Ширвана входят в число наших исторических памятников, обогащающих исламское культурное наследие. В архитектуре Ширвана новый образ мечети начал формироваться с середины VII века. В связи с приходом ислама на территории Азербайджана были построены первые мечети. Среди них в качестве примера можно привести Шамахинскую Джума-мечеть. Джума-мечеть своими большими размерами и великолепной архитектурой демонстрирует, что Шемаха в то время была престижным районным центром. По сведениям, арабы, пришедшие в Азербайджан в VII веке, построили первую мечеть на Кавказе в 733 году в Дербанде, а вторую в 743 году в Шемахе. Мечеть Джума, на протяжении веков переживавшая стихийные бедствия и опустошительные войны, за последние сто лет перенесла еще два страшных удара: пожар, устроенный армянскими нефтяниками, и тот факт, что она пришла в негодность и была заброшена в годы советской власти, поскольку если запугать народ. Комплекс мечети Имамзаде на улице Имамлы, недалеко от знаменитой Джума - мечети в центре города, считается одним из древнейших памятников Шемахи.

В Исмаиллинском районе (села Ашыкбайрам, Дияллы, Миджан, Ениел, Топчу, Таглабиан) мечети XIX - начала XX веков благодаря своему архитектурному стилю считаются классическими образцами мусульманского восточного искусства. Старыми мусульманскими памятниками являются также могила XIX века в селе Зейва, мечети “Верхний Эрагит” и “Нижний Эрагит” XIX века в селе Эрагит.

Мечеть Баскала имеет интересные детали с древней и структурной точки зрения. Строительство мечети Хаджи Мухаммад-аги в городе Агдаш началось в 1892 году и завершилось летом 1893 года. Строительство мечети осуществил архитектор Мир Мухаммад Мир Нади оглы. Джамиль Александрович-Насифи, сотрудник Общества по изучению и исследованию Азербайджана, сообщил в 1926 году, что в Агсуде есть великая мечеть, ровесница Шамахинской Джума-мечети и полностью похожая на нее. В записях Насифи также содержится информация о могиле Шихмазида. По словам пожилых жителей региона, мечеть и усыпальница Шихмезидов были разрушены в рамках мероприятий “культурной революции”, осуществленных советской властью в 30-х годах прошлого века. Это здание Верхней мечети в городе Гейчай, отличающееся своей историей и высоким архитектурным мастерством. Мечеть была построена и завершена в 1906 году по проекту первого азербайджанского архитектора с высшим образованием Зивар-бея Ахмедбекова. Строительство этой мечети началось в 1902 году. Яичные белки и желтки использовались для добавления в грязь при строительстве мечети. Ради 124 тысяч пророков для этой мечети было изготовлено 124 тысячи обожженных кирпичей. Известные священнослужители того времени, такие как Хаджи Ахунд и Мир Фазиль Ага, были первыми учеными этой мечети.

## ABSTRACT

***Konul ASADLI***

### *The Mosques of the Shirvan Region in the Sphere of Spiritual Values of the Azerbaijani People*

***Keywords:*** *Shirvan, spiritual culture, Islam, mosque, criteria*

The Shirvan region has included the local aspects and main criteria of our national and moral values. The important components of our spiritual culture that have come down to our time—the unity of ethno-cultural aspects—have found their place in the Shirvan region to a significant extent. As in the entire Near and Middle East, Islam played an important role in social and political life in Azerbaijan and the Shirvan region as well. The ancient, historic mosques in Shirvan are among our historical monuments that enrich the Islamic cultural heritage. In Shirvan architecture, a new image of a mosque began to take shape in the middle of the 7th century. In connection with the arrival of Islam, the first mosques were built on the territory of Azerbaijan; among them, the Shamakhi Juma mosque can be cited as an example. Juma Mosque, with its large size and magnificent architecture, demonstrates how Shamakhi was a prestigious district center at that time.

According to information, the Arabs who came to Azerbaijan in the 7th century built the first mosque in the Caucasus in 733 in Darband, and the second in 743 in Shamakhi. The Juma Mosque, which has endured natural disasters and destructive wars for centuries, suffered two more terrible blows in the last hundred years: the fire caused by Armenian oilmen, and the fact that it was made useless and neglected during the years of Soviet rule, as if to intimidate the people. The Imamzade mosque complex on Imamli Street, near the famous Friday Mosque in the center of the city, is considered one of the oldest monuments of Shamakhi. Mosques of the 19th - early 20th centuries in Ismayilli district (Aşıgbayram, Diyalli, Mican, Yeniyol, Topchu, Taglabiyan villages) are considered classic examples of Muslim Eastern art due to their architectural style.

The 19th-century tomb in Zeyva village, the 19th-century "Yukhari Eragit" and "Ashaghi Eragit" mosques in Eragit village are also old Muslim monuments. Basqal Mosque has interesting details from an ancient and structural point of view. The construction of the Haji Muhammad Aga Mosque in Agdash city began in 1892 and was completed in the summer of 1893. The construction of the mosque was carried out by the architect Mir Muhammad Mir Nadi Oglu. Jamil Aleksandrovich-Nasifi, an employee of the Society for Learning and Researching Azerbaijan, reported in 1926 that there is a great mosque in Agsu, the same age as the Shamakhi Juma Mosque and completely similar to it. Nasifi's notes also provide information about the Shikhmazid tomb. According to the elderly residents of the region, the Shikhmezid mosque and tomb were destroyed in the framework of the "cultural revolution" measures implemented by the Soviet regime in the 30s of the last century. It is the Upper Mosque building in the city of Goychay, distinguished by its history and high architectural craftsmanship. The mosque was built and completed in 1906 based on the project of the first Azerbaijani architect with a higher education, Zivar Bey Ahmadbeyov. The construction of this mosque started in 1902. Egg whites and yolks were used to add to the mud in the construction of the mosque. For the love of 124 thousand prophets, 124 thousand baked bricks were made for this mosque. Famous clerics of the time, such as Haji Akhund and Mir Fazil Agha, were the first scholars of this mosque.

# İLLÜSTRASİYALAR





Şəkil 1. Şamaxı Cümə məscidi. Şamaxı şəhəri







Şəkil 2. İmamzadə məscidinin plan və fasadı. XIX əsr. Şamaxı şəhəri Azərbaycan Respublikası, Dövlət Tarix Arxivi, Fond № 290, siyahı 1, iş 52



Şəkil 3. Hacı Məhəmməd ağa məscidi. Ağdaş



Şəkil 4. Mərkəz məscidi. Göyçay. XIX-XX əsrin əvvəlləri



Şəkil 5. Yuxarı məscid. Göyçay şəhəri. XIX-XX əsrin əvvəlləri